## Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı

# BEYNƏLMILƏLLƏŞMƏ SIYASƏTI

Təsdiq edirəm:
ADPU-nun Şamaxı filialının direktoru
f.ü.f.d.,dos.Tünzalə Yusifova
“24” “fevral” 2025-ci il

### *1. Ümumi müddəalar*

Müasir ali təhsil sistemində beynəlmiləlləşmə təhsilin akademik keyfiyyətinin, rəqabət qabiliyyətinin və qlobal inteqrasiyasının əsas göstəricilərindən biridir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı bu siyasət sənədi vasitəsilə təhsil, tədqiqat və idarəetmə sahələrində beynəlxalq standartlara uyğun inkişafı təmin etməyi qarşısına məqsəd qoyur.Bu sənəd “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”na və filialın 2025-2030-cu illər üzrə Strateji inkişaf Planına əsaslanaraq hazırlanıb.

Bu sənəd Filialda beynəlmiləlləşmə fəaliyyətinin sistemli şəkildə qurulmasını, beynəlxalq əməkdaşlığın genişləndirilməsini, tələbə və əməkdaş mobilliyinin artırılmasını, ali təhsil məkanında rəqabət qabiliyyətinin gücləndirilməsini hədəfləyir.

### *2. Siyasətin məqsədi*

Filialın beynəlxalq təhsil və elmi mühitə inteqrasiyasını təmin etmək, beynəlxalq tərəfdaşlıqları cəlb etmək və tələbə-müəllim heyətinin qlobal akademik imkanlardan faydalanmasını artırmaq.

### ***3. İnstitusional strukturun formalaşdırılması***

3.1.Filialda Beynəlxalq əlaqələr şöbəsinin yaradılmasına nail olmaq;

3.2.Beynəlxalq fəaliyyətlərin koordinasiyası üçün məsul şəxsin müəyyənləşdirilməsi.

### ***4. Beynəlxalq tələbə və əməkdaş mobilliyi***

4.1.Akademik heyətin və tələbələrin mübadilə proqramlarına qoşulmasına dəstək verilməsi;

4.2.Filialın idarəetmə sisteminə töhvə verən regional və beynəlxalq layihələrdə iştiraka təşviq edilməsi.

***5. Beynəlxalq tərəfdaşlıqların inkişafı***

5.1. ADPU-nun mövcud beynəlxalq mübadilə prosedurları çərçivəsində beynəlxalq tərəfdaşlarla əlaqələrin qurulması imkanlarının təmin olunması;
5.2.Xarici universitetlər və elmi qurumlarla yeni əməkdaşlıq müqavilələrinin təşviqi.

***6. Beynəlxalq elmi tədbirlərdə iştirak***

6.1. Beynəlxalq elmi tədbirlərdə filialın təmsilinə nail olmaq;
6.2. Akademik heyəti innovativ elmi-tədqiqat işləri və nüfuzlu beynəlxalq tədbirlərdə iştiraka təşviq etmək. potensialının beynəlxalq tədbirlərdə tanıdılması.

***7.Tələbə məlumatlılığının artırılması***

7.1. Mübadilə proqramlarının imkanları haqqında tələbələrin məlumatlılığının artırılması;
7.2. Uğurlu mobillik təcrübələrinin paylaşılması.

***8. Rəqəmsal və informasiya dəstəyi***

8.1.Filialın veb saytında beynəlxalq əlaqələrə dair ayrıca bölmənin yaradılması;
8.2. Beynəlxalq proqramlar, tərəfdaşlar və elanlar barədə mütəmadi və hədəflərə uyğun məlumatların paylaşılması.

***9. İcra mexanizmləri***

9.1.İllik fəaliyyət planlarının hazırlanması;
9.2. Müvafiq struktur bölmələri arasında koordinasiyanın gücləndirilməsi;
9.3. ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektorluğu ilə sıx əməkdaşlıq.

***10.Tədqiqatların beynəlmiləlləşməsi:***

10.1.Elmi tədqiqatların, elmi məqalələrin nüfuzlu beynəlxalq elmi nəşrlərdə dərcinin təşviq edilməsi;
10.2.Əcnəbi professor-müəllim heyətinin, istedadlı tələbələrin elmi araşdırmalarda birgə iştirakını nəzərdə tutan birgə elmi araşdırmaların cəlb edilməsi;
10.3.Filialın tədqiqat imkanlarının (laboratoriyalarının) əhəmiyyətli dərəcədə genişləndirməsi və modernləşdirməsi, müasir standartlara uyğunlaşdırması;
10.4.Filiala xaricdə təhsil almış akademik heyətin cəlb olunması.

## 10. *Monitorinq və qiymətləndirmə*

10.1.Beynəlmiləlləşmə fəaliyyətinin illik hesabatlarla qiymətləndirilməsi;

10.2.Tələbə və əməkdaş mobilliyinin statistik göstəricilərinin təhlili;

10.3. Beynəlmiləlləşmə fəaliyyətinin keyfiyyət və nəticə baxımından dəyərləndirilməsi.

## 11. *Yekun müddəalar*

Bu siyasət sənədi Filialın beynəlmiləlləşmə strategiyasının əsas çərçivəsini müəyyən edir və dəyişən qlobal təhsil mühitinə uyğun olaraq mütəmadi yenilənə bilər.